# Polad Bülbüloğlunun "Eşq və ölüm" baleti haqqında

"Eşq və ölüm" - bəstəkar Polad Bülbüloğlunun Dədə Qorqud dastanının motivləri əsasında yaratdığı balet ilk dəfə 2005-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Vyana Balet Akademiyasının professoru, baletmeyster Vakil Usmanov tərəfindən səhnəyə qoyulub.

Elə 2005-ci ildə Akademik Opera və Balet Teatrının balet truppası həmin tamaşanı Mariinski adına Sankt-Peterburq Akademik Opera və Balet Teatrında, daha sonra Moskvada Böyük Teatrın səhnəsində nümayiş etdirilib. 2010-cu ildə isə xoreoqraf Nadejda Malıqinanın təşəbbüsü ilə "Eşq və ölüm" baleti Yekaterinburq Dövlət Opera və Balet Teatrında səhnəyə qoyulub. 2011-ci ildə Yekaterinburq teatrı bu tamaşanı Dövlət Akademik Böyük Teatrının səhnəsində, sonra isə Türkiyənin Ankara şəhərində göstərib. Ümumiyyətlə, bu baletdən ayrı-ayrı musiqi parçaları hər il keçirilən Münhen opera sənəti festivalında musiqi rəhbəri Korneliya Kerssenbrofkun idarəsi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestri tərəfindən ifa olunur.



**Məzmunu**

"Eşq və ölüm" baleti məşhur "Dədə Qorqud" dastanının motivləri əsasında qələmə alınıb, həyat və ölüm, əbədi məhəbbət, dostluq, xəyanət kimi əbədi mövzulardan bəhs edir.

Azər və Baycan bir birini sevirlər, amma Yalıncıq da qıza biganə deyil. Oğlanlar qızın sevgisi uğrunda döyüşürlər. Baycan Azəri seçir və bu təəccüblü deyil, çünki Azər və Baycan birlikdə olur Azərbaycan. Amma onların səadəti çox sürmür. Ölkəyə yağılar saldırır və nakam sevgi Yalıncığı xəyanətə sürükləyir. Azər və Baycan əsir düşürlər və ən sonda ölürlər. Baletin ən yadda qalan surətlərindən biri də qarageyimli və ağsifətli Ölümdür.

## Haqqında dövri mətbuatda

### 2023

**"Eşq və Ölüm"ün növbəti tamaşası** [Mətn] //Mədəniyyət.- 2023.- 8 fevral.- S.3.- ***Polad Bülbüloğlunun*** eyniadlı baleti Opera və Balet Teatrında nümayiş olunub.
http://www.anl.az/down/meqale/medeniyyet/2023/fevral/835153.htm

### 2020

**"Eşq və ölüm" baleti nümayiş olunub** [Mətn] //Xalq qəzeti.- 2020.- 7 fevral.- S.13.
http://www.anl.az/down/meqale/xalqqazeti/2020/fevral/700629(meqale).pdf

**"Eşq və Ölüm" müəllifin yubileyi münasibətilə nümayiş olunub** [Mətn] //Mədəniyyət. - 2020.- 7 fevral. - S.2.- Akademik Opera və Balet Teatrında Xalq artisti ***Polad Bülbüloğlunun*** eyniadlı baletinin nümayişi haqqında //Mədəniyyət.- 2020.- 22 yanvar.- S.2. //525-ci qəzet.- 2020.- 22 yanvar.- S.13.

http://www.anl.az/down/meqale/medeniyyet/2020/yanvar/696600.htm

**"Eşq və Ölüm"ün yubiley nümayişi** [Mətn] //525-ci qəzet.- 2020.- 8 fevral.- S.12.- Opera və Balet Teatrında Xalq artisti ***Polad Bülbüloğlunun*** 75 illik yubileyi münasibətilə bəstəkarın eyniadlı baleti nümayiş olunub.
http://www.anl.az/down/meqale/525/2020/fevral/82.htm

**2017**

**Babayeva, Aydan.** Polad Bülbüloğlunun "Eşq və ölüm" baletinin musiqi üslubu və obrazlar aləmi [Mətn] /A.Babayeva //Mədəniyyət.az.- 2017.- №1.-Yanvar-Fevral.- S.61-63.

**2016**

**Ağazadə, Zeynal.** Azərbaycanın Rusiya Federasiyasındakı səfiri, tanınmış bəstəkar Polad Bülbüloğlu ilə Minsk-Bakı videokörpüsü keçirilib [Mətn] /Z.Ağazadə //Azərbaycan.- 2016.- 11 iyun.- S. 4.- ***Polad Bülbüloğlunun*** "Eşq və Ölüm" baletinin Belarus premyerasına həsr olunan.
http://www.anl.az/down/meqale/azerbaycan/2016/iyun/495409.htm

**Belarusda Polad Bülbüloğlunun "Eşq və ölüm" baletinin premyerası** [Mətn] //Mədəniyyət.- 2016.- 15 iyun.- S. 8.- "Böyük Teatrda balet yayı" adlı beynəlxalq festivalda.
http://www.anl.az/down/meqale/medeniyyet/2016/iyun/495862.htm

**2015**

**Eşq və Ölüm" - ölməz məhəbbətin tərənnümü** [Mətn]: ***Polad Bülbüloğlunun*** məşhur baleti müəllifin yubileyi münasibətilə yeni quruluşda təqdim olundu //Mədəniyyət.- 2015.- 4 fevral.- S. 2.- Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında.
http://www.anl.az/down/meqale/medeniyyet/2015/fevral/418770.htm

**Nizamiqızı, Həmidə.** Ölməz eşqin sönməyən atəşində [Mətn]: /H.Nizamiqızı //Mədəniyyət.- 2015.- 6 fevral.- S. 12.- Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, ***Polad Bülbüloğlunun*** məşhur baleti müəllifin yubileyi münasibətilə yeni quruluşda təqdim olundu.
http://www.anl.az/down/meqale/medeniyyet/2015/fevral/419159.htm

**2011**

**Zümrüd. "**Məhəbbət və ölüm" baleti sənətsevərlərə təqdim olunub [Mətn] /Zümrüd //Səs.- 2011.- 18 yanvar.- S. 12.- Ankara Opera və Balet Teatrında xalq artisti ***Polad Bülbüloğlunun*** eyni adlı baletinin təqdim olunması haqqında.

**2010**

**Hacızadə, Asya.** Moskvada ***Polad Bülbüloğlunun*** "Eşq və ölüm" baletinin premyerası anşlaqla keçmişdir [Mətn] /A.Hacızadə //Azərbaycan.- 2010. - 5 fevral.- S.5.